# Yeni Azərbaycan Partiyasının yaradılmasının 33 illiyi ilə əlaqədar konfrans keçirilib



(Əvvəli 5-ci səhifədə).

də böyük xidmətlər göstərdiyini, partiyanın cəmiyyətin bütün təbəqələri ilə açıq dialoq aparan, yeniliklərə açıq, milli dəyərlərə sadiq bir siyasi qüvvə kimi formalaşdığını qeyd etmişlər. Tədbirdə partiya üzvü olan şəhid valideyinləri və qazilərə Yeni Azərbaycan Partiyasının yaradılmasının 33-cü ildönümü ilə əlaqədar xatirə hədiyyələri, partiya sıralarına yeni qəbul olunmuş bir qrup gəncə üzvlük vəsiqəsi təqdim edilmişdir. Tədbir Yeni Azərbaycan Partiyasının himninin səsləndirilməsi ilə yekunlaşmışdır.

# Ümummilli Lider Heydər Əliyevin Anım günü ilə əlaqədar ehsan məclisi



Qəbələ Rayon İcra hakimiyyətinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin Anım günü ilə əlaqədar ehsan məclisi təşkil edilmişdir. Qəbələ Rayon İcra Hakimiyyətinin, YAP Qəbələ Rayon Təşkilatının, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların, rayon ictimaiyyətinin nümayəndələrinin, şəhid ailələri və ağsaqqalların iştirak etdiyi tədbirdə çıxış edənlər Ümummilli Lider Heydər Əliyevin irsinin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə həmişə xalqımızın milli-



mənəvi dəyərlərinin qorunmasına, milli mədəniyyətimizin inkişafına, xalqın adət-ənənələrinin zənginləşdirilməsinə çalışdığını qeyd etmiş, Ümummilli Liderin təməlini qoyduğu daxili və xarici siyasət kursunun, dövlət quruculuğu konsepsiyasının bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini və yeni çalarlarla zənginləşdirildiyini diqqətə çatdırmışlar. Tədbirdə Ulu Öndərin ruhuna dualar oxunmuş və tədbir ehsan məclisi ilə davam etmişdir.

# On ayda Qəbələdən 16,4 milyon manatlıq sənaye məhsulu ixrac olunub

Cari ilin yanvar-oktyabr aylarında Qəbələ rayonunda fəaliyyət göstərən sənaye müəssisələri tərəfindən faktiki qiymətlərlə 119 milyon 58,9 min manatlıq sənaye xarakterli məhsul istehsal olunmuş və xidmətlər göstərilmişdir. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 852,7 min manat çoxdur. İstehsal edilən sənaye məhsulunun 12,3 faizi dövlət, 87,7 faizi qeyri-dövlət sektorunun payına düşüb. On ayda rayondan 16 milyon 403,7 min manatlıq sənaye məhsulu ixrac olunub. Rayonun sənayesi əsasən mədənçıxarma, emal, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, su təchizatı, tullantıların təmizlənməsi və emalı sahələrini əhatə edir.

# Ümummilli Lider Heydər Əliyevin Anım Günü Qəbələdə ehtiramla qeyd edilmişdir



Qəbələ Rayon İcra Hakimiyyətinin, YAP Qəbələ Rayon Təşkilatının, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların, eləcə də rayon ictimaiyyətinin nümayəndələri Ulu Öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, abidə önünə gül dəstələri düzərək dahi rəhbərin xatirəsinə böyük hörmət və ehtiramlarını bildirmişlər.

**Fotolar S. Umuyevindir.**



# "Konstitusiya və Suverenlik İli" - bir-birini tamamlayan iki tarixi hadisə

1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyi bərpa olunduqdan sonra ölkədə yeni ictimai-siyasi şərait formalaşdı. Müstəqil dövlətin qurulması üçün yeni hüquqi əsaslar, müasir idarəçilik mexanizmi və xalqın iradəsinə söykənən qanunvericilik sistemi yaradılmalı idi. Lakin 1991-1993-cü illərdəki siyasi qeyri-sabitlik, idarəetmədə xaos və anarxiya bu prosesi ləngitdi. Yalnız Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra Azərbaycanda dövlətçilik prinsipləri bərpa olundu, sabitlik təmin edildi və hüquqi dövlət quruculuğunun əsası qoyuldu.

Heydər Əliyevin təşəbbüsü ilə 1995-ci ildə Konstitusiya Komissiyası yaradıldı. Uzunmüddətli müzakirələrdən, elmi və ictimai debatlardan sonra həmin ilin 12 noyabrında Azərbaycan Respublikasının ilk müstəqil Konstitusiyası ümumxalq səsverməsi ilə qəbul olundu. Ulu Öndər Heydər Əliyev demişdir ki, Konstitusiyamız ümumbəşəri dəyərlərə və mütərəqqi milli ənənələrə söykənərək, bu günün reallıqlarını, dövlətin, cəmiyyətin inkişaf perspektivlərini əks etdirir. Azərbaycan Respublikasının Konstitusiyası hazırlanarkən dünyanın inkişaf etmiş ölkələrinin konstitusiya təcrübəsi, xüsusən də demokratik və hüquqi dövlət quruculuğu prinsipləri əsas götürülmüşdür. Əsas Qanunda dövlətin fəaliyyəti hüquq üstünlüyü və insan azadlıqlarının qorunması üzərində qurulmuşdur. Konstitusiyada müasir dövrün hüquqi dövlət quruculuğu meyilləri nəzərə alınmışdır.

Azərbaycan Respublikasının Konstitusiyası təkcə dövlət idarəçiliyinin hüquqi bazasını deyil, həm də cəmiyyətin mənəvi, siyasi və sosial inkişaf istiqamətini müəyyən etmişdir.

2003-cü il oktyabrın 15-də keçiriləcək prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq vermiş Heydər Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməkdən imtina edib.

Uzun müddət ABŞ-ın Klivlend klinikasında müalicə olunan Heydər Əliyev 2003-cü il dekabrın 12-də dünyasını dəyişib.

Məhz həmin gündən dekabrın 12-si xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyevin anım günüdür. Allah rəhmət eləsin!

Konstitusiyanın mühüm bəndlərindən biri Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin təmin edilməsidir. Lakin 1990-cı illərin əvvəllərində Ermənistanın hərbi təcavüzü nəticəsində ölkəmizin bir hissəsi işğal altında qaldığından, bu prinsip uzun illər faktiki olaraq pozulmuşdu. 2020-ci il 27 sentyabr - 44 günlük Vətən müharibəsi Azərbaycan xalqının və ordusunun misilsiz qəhrəmanlığı nəticəsində torpaqlarımızın böyük hissəsi azad edildi. 2023-cü il 19-20 sentyabr tarixlərində həyata keçirilmiş lokal antiterror tədbirləri isə Qarabağda separatçılığa son qoydu və Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi tam şəkildə bərpa olundu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli Sərəncamı ilə

(Ardı 6-cı səhifədə).